| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 14.07.2015 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 554 |
| **ADI** | “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Respublika Qəzeti (Dərc olunma tarixi: 17-07-2015, Nəşr nömrəsi: 153), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-2015, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 822) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 17.07.2015 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 210.080.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201507140554 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 16.07.2015 |

**“Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. beş ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin Qanunun 4.8-ci maddəsinə uyğun olaraq, reklam qurğularına texniki tələbləri müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.4. həmin Qanunun 11.2-ci maddəsinə uyğun olaraq, reklamı qadağan olunan əmtəələrin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 12.2-ci maddəsinə uyğun olaraq, yetkinlik yaşına çatmayanlara zərərli təsir göstərə bilən reklamın məktəbəqədər və ümumi təhsil müəssisələrinin ərazisindən hansı məsafədən yaxın yerləşdirilməsinə yol verilmədiyini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin Qanunun 21.2-ci maddəsinə uyğun olaraq, qaçan sətirlə yayımlanan reklamın təqdimolunma qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 25.3-cü maddəsinə uyğun olaraq, nəqliyyat vasitələrində reklamın yerləşdirilməsi normalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin Qanunun 25.3-cü maddəsinə ~~və 26.2-ci maddəsinin dördüncü cümləsinə~~ uyğun olaraq, reklama dair texniki şərtlər pasportunun formasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;[1]

1.1.9. həmin Qanunun 26.6-cı maddəsinə uyğun olaraq, reklam qurğularının yol kənarında yerləşdirilməsi standartlarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

~~1.1.10. həmin Qanunun 34.4-cü maddəsinə uyğun olaraq, reklam yayımına icazə (razılıq) verilməsi qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;~~ [2]

~~1.1.11. həmin Qanunun 35.2-ci maddəsinə uyğun olaraq, reklamın yayımına görə ödənilən haqqın məbləğini hesablama qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;~~

1.1.12. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

~~1.2. həmin Qanunun 26.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini avtomobil yollarının torpaq sahələrinə münasibətdə həyata keçirən icra hakimiyyəti orqanı barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun *4.7-ci maddəsinin dördüncü cümləsində, 6.1.8-ci, 20.8-ci maddələrində, 26.1-1-ci maddəsinin ikinci cümləsində, 26.2-ci maddəsinin birinci cümləsində, 26.2-1-ci maddəsində (açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi qaydasına münasibətdə), 26.2-2.2-ci, 26.2-3-cü maddələrində, 26.3-cü maddəsində üçüncü halda, 34.2-ci maddəsində ikinci halda, 35.3-cü maddəsinin birinci cümləsində və 37.0.3-cü maddəsində ikinci halda* nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;[3]

2.2. həmin Qanunun 4.8-ci, 11.2-ci, 12.2-ci, 21.2-ci maddələrində, 25.3-cü maddəsinin birinci və dördüncü cümlələrində, *26.2-1-ci maddəsində (açıq məkanda reklam yerləşdirilməsinə verilən icazənin formasına münasibətdə)*, 26.6-cı~~, 34.4-cü~~ və 35.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[4]

~~2.3. həmin Qanunun 4.7-ci maddəsinin dördüncü cümləsində *“qurum” dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur*;~~ [5]

*2.4. həmin Qanunun 6.1.8-ci maddəsində, 26.2-ci maddəsinin birinci cümləsində, 26.2-2.2-ci, 26.2-3-cü, 34.2-ci və 37.0.3-cü maddələrində “qurum” dedikdə Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, Şuşa şəhərinin ərazisinə münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisinə münasibətdə ~~isə~~ “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı şəhərində yerləşən*

*Dənizkənarı Milli Parkın ərazisinə münasibətdə isə Dənizkənarı Bulvar İdarəsi nəzərdə tutulur;*[6]

2.5. həmin Qanunun 9.2-ci maddəsinin birinci cümləsində, 9.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 9.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 34.2-ci və 37.0.3-cü maddələrində *birinci halda* nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi həyata keçirir;[7]

2.6. həmin Qanunun 23.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir;

2.7. həmin Qanunun 25.2-ci maddəsində və 25.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

*2.8. həmin Qanunun 26.3-cü maddəsində birinci və ikinci hallarda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyindəki tarix və mədəniyyət abidələrinin ərazilərinə (onların mühafizə zonalarına) münasibətdə, müvafiq olaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi həyata keçirirlər, həmin maddədə "qurum" dedikdə isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının mühafizə zonasına münasibətdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;*[8]

2.9. həmin Qanunun 29.1-ci və 29.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

~~*2.10. həmin Qanunun 32.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;*~~[9]

~~*2.11. həmin Qanunun 33.2.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir;*~~ [10]

~~2.12. həmin Qanunun 33.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;~~[11]

*2.13. həmin Qanunda "maliyyə bazarlarına nəzarət orqanı" dedikdə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;*

*2.14. həmin Qanunun 4.7-ci maddəsinin dördüncü cümləsində "qurum" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.*[12]

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 1, maddə 13; 2001, 10, maddə 640; 2002, 8, maddə 487; 2005, 2, maddə 69; 2008, 1, maddə 8; 2013, 5, maddə 495, 6, maddə 650; 2014, 5, maddə 477) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2015-ci il
554

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
2. 18 noyabr 2016-cı il tarixli **1114** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1821** )
3. 7 dekabr 2016-cı il tarixli **1144** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, 272 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2062**)
4. 9 mart 2017-ci il tarixli **1276** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 11 mart 2017-ci il, 54 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 354**)
5. 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**)
6. 15 dekabr 2017-ci il tarixli **1727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 17 dekabr 2017-ci il, 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2295** )
7. 27 noyabr 2018-ci il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2289**)
8. 30 mart 2019-cu il tarixli **599** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 439** )

9. 5 aprel 2019-cu il tarixli **611** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 7 aprel 2019-cu il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 611**)

10. 17 iyul 2020-ci il tarixli **1111** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 iyul 2020-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 891**)

11. 30 dekabr 2021-ci il tarixli **1563** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1428**)

12. 30 mart 2023-cü il tarixli **2078** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 30 mart 2023-cü il, "Xalq" qəzeti, 31 mart 2023-cü il, 65**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 1.1.8-ci yarımbənddən "**və 26.2-ci maddəsinin dördüncü cümləsinə**" sözləri çıxarılmışdır.

[2] 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 1.1.10-cu, 1.1.11-ci yarımbəndlər və 1.2-ci bənd ləğv edilmişdir.

[3] 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 2.1-ci bənddə "**20.8-ci maddəsində**" sözləri "**6.1.8-ci, 20.8-ci maddələrində, 26.1-ci maddəsinin ikinci cümləsində, 26.2-ci maddəsinin birinci və dördüncü cümlələrində, 26.2-1-ci maddəsində (açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi qaydasına münasibətdə), 26.3-cü, 34.2-ci və 37.0.3-cü maddələrində ikinci halda**" sözləri ilə əvəz edilmişdir.

15 dekabr 2017-ci il tarixli **1727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 17 dekabr 2017-ci il, 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2295** ) ilə 2.1-ci bənddə "**26.3-cü, 34.2-ci və 37.0.3-cü maddələrində**" sözləri "**26.2-2.2-ci, 26.2-3-cü maddələrində, 26.3-cü və 34.2-ci maddələrində ikinci halda, 35.3-cü maddəsinin birinci cümləsində və 37.0.3-cü maddəsində**" sözləri ilə əvəz edilmişdir.

30 mart 2019-cu il tarixli **599** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 439** ) ilə 2.1-ci bəndə "**Qanununun**" sözündən sonra "**4.7-ci maddəsinin dördüncü cümləsində,**" sözləri əlavə edilmişdir, həmin bənddə "**26.1-ci maddəsinin ikinci cümləsində, 26.2-ci maddəsinin birinci və dördüncü cümlələrində**" sözləri "**26.1-1-ci maddəsinin ikinci cümləsində, 26.2-ci maddəsinin birinci cümləsində** " sözləri ilə, "**26.3-cü və 34.2-ci maddələrində ikinci halda**" sözləri "**26.3-cü maddəsində üçüncü halda, 34.2-ci maddəsində ikinci halda** " sözləri ilə əvəz edilmişdir.

[4] 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 2.2-ci bənddə "**26.2-ci maddəsinin dördüncü cümləsində** " sözləri "**26.2-1-ci maddəsində (açıq məkanda reklam yerləşdirilməsinə verilən icazənin və reklama dair texniki şərtlər pasportunun formasına, həmçinin icazə müqaviləsinin formasına və bağlanma qaydasına münasibətdə)**" sözləri ilə əvəz edilmişdir, "**, 34.4-cü** " sözləri çıxarılmışdır.

30 mart 2019-cu il tarixli **599** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 439** ) ilə 2.2-ci bənddə "**və reklama dair texniki şərtlər pasportunun formasına, həmçinin icazə müqaviləsinin formasına və bağlanma qaydasına**" sözləri "**formasına**" sözü ilə əvəz edilmişdir.

[5] 30 mart 2019-cu il tarixli **599** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 439** ) ilə 2.3-cü bənddə **"nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir"** sözləri **"qurum" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur"** sözləri ilə əvəz edilmişdir.

5 aprel 2019-cu il tarixli **611** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 7 aprel 2019-cu il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 611**) ilə 2.3-cü bənd ləğv edilmişdir.

[6] 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 2.4-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.4. həmin Qanunun 6.1.8-ci maddəsində, 26.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanları, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;~~

15 dekabr 2017-ci il tarixli **1727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 17 dekabr 2017-ci il, 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2295** ) ilə 2.4-cü bəndə "**cümlələrində,**" sözündən sonra "**26.2-2.2-ci, 26.2-3-cü,**" sözləri əlavə edilmişdir.

30 mart 2019-cu il tarixli **599** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 439** ) ilə 2.4-cü bənddə "**26.1-ci maddəsinin ikinci cümləsində, 26.2-ci maddəsinin birinci və dördüncü cümlələrində**" sözləri "**26.2-ci maddəsinin birinci cümləsində** " sözləri ilə əvəz edilmişdir.

27 noyabr 2018-ci il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2289**) ilə 2.4-cü bəndindən "**isə**" sözü çıxarılmışdır və həmin bəndə "**Qoruğu İdarəsi**" sözlərindən sonra "**, Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisinə münasibətdə isə Dənizkənarı Bulvar İdarəsi**" sözləri əlavə edilmişdir.

30 mart 2023-cü il tarixli **2078** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 30 mart 2023-cü il, "Xalq" qəzeti, 31 mart 2023-cü il, 65**) ilə 2.4-cü bəndə "**Agentliyi,**" sözündən sonra "**Şuşa şəhərinin ərazisinə münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,**" sözləri əlavə edilmişdir.

[7] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 2.5-ci bənddən "**və Sənaye**" sözləri çıxarılmışdır.

31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 2.5-ci bəndə "**maddələrində**" sözündən sonra "**birinci halda**" sözləri əlavə edilmişdir.

[8] 31 iyul 2017-ci il tarixli **1568** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 avqust 2017-ci il, 164 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1378**) ilə 2.8-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.8. həmin Qanunun 26.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;~~

30 mart 2019-cu il tarixli **599** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 3 aprel 2019-cu il, 70, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 439** ) ilə 2.8-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*2.8. həmin Qanunun 26.3-cü maddəsində birinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir, "qurum" dedikdə isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisinə münasibətdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;*~~

-

[9] 7 dekabr 2016-cı il tarixli **1144** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, 272 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2062**) ilə 2.10-cu bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.10. həmin Qanunun 32.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini idman mərc oyunları reklamına münasibətdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, lotereya (stimullaşdırıcı lotereya istisna edilməklə) reklamına münasibətdə isə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi həyata keçirir;~~

30 dekabr 2021-ci il tarixli **1563** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1428**) ilə 2.10-cu bəndi ləğv edilmişdir.

[10] 18 noyabr 2016-cı il tarixli **1114** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1821** ) ilə 2.11-ci bəndi ləğv edilmişdir.

[11] 17 iyul 2020-ci il tarixli **1111** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 iyul 2020-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 891**) ilə 2.12-ci bənd ləğv edilmişdir.

[12] 5 aprel 2019-cu il tarixli **611** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 7 aprel 2019-cu il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 611**) ilə 2.13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 2.14-cü bənd əlavə edilmişdir.